> ***Bu konqres yeni, müasir texnologiyalar sahəsində dünya miqyasında ən mötəbər beynəlxalq tədbirdir. Bu tədbirin əhəmiyyətini sübut edən məqamlardan biri də odur ki, konqresin işində Amerikanın vitse-prezidenti cənab Pens iştirak etmişdir. Növbəti konqresin Azərbaycanda keçirilməsi haqqında qərarın dəstəklənməsi, əlbəttə ki, ölkəmizin siyasi nüfuzunun təzahürüdür, Azərbaycana olan inamın nəticəsidir.***
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**

> ***Bakıda keçiriləcək Beynəlxalq Astronavtika Konqresi həm Beynəlxalq Astronavtika Federasiyası, həm bütün kosmik ictimaiyyət üçün, həm də Azərbaycan üçün çox əhəmiyyətli hadisəyə çevriləcək. Bütün kosmik ictimaiyyət üzvləri Bakıya gələcək və Azərbaycanın son illərdə kosmik sənayedə qazandığı bütün uğurları və ölkənin bu sahədəki gələcək planları ilə tanış olacaq.***
>
> **Kristian FAYTHİNGER**
> **Beynəlxalq Astronavtika Federasiyasının icraçı direktoru**

# Yeni uğurun mübarək, Azərbaycan!



### *2019-cu ilin oktyabrı*

Doğrudur, son illərin hər ayında Azərbaycanın beynəlxalq uğurları çox olur. 2019-cu ilin oktyabrı isə bu baxımdan rekord göstəricilərlə yadda qalır. Heç kəs unutmayıb, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında çıxışında Ermənistanın baş nazirinin məhz Azərbaycan ərazisində səsləndirdiyi cəfəng bəyanata qəti şəkildə: “Dağlıq Qarabağ Azərbaycandır!”, – deyərək, konkret cavab vermiş və düşməni növbəti dəfə ifşa etmişdir.

Dövlət başçısı həmin tədbirdən bir həftə sonra – oktyabrın 11-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə keçirilən iclasında Ermənistanın dövlət siyasətini faşizmi dəstəkləməkdə ittiham etmiş və həmin ittihamını konkret tarixi sənədlər və faktlarla əsaslandırmışdır.

Oktyabrın 14-15-i də Azərbaycan üçün olduqca uğurlu tarix kimi yaddaşlara yazılmışdır. Həmin gün Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü keçirilirdi. On il əvvəl Azərbaycanın qədim Naxçıvan şəhərində təməli qoyulmuş həmin təşkilatın Bakı sammiti quruma Özbəkistanın da tamhüquqlu üzv kimi qəbul edilməsi, Türkmənistanın bu istiqamətdə konkret addımlar atması və Macarıstanın TDƏŞ Zirvəsində ən ali səviyyədə təmsil olunması ilə yadda qaldı.

Ayın başqa bir uğuruna isə oktyabrın 25-də imza atdıq. Həmin gün Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü işə başladı. Bu tədbir müasir Azərbaycan tarixinə 120 ölkənin bir sənədlə Ermənistanı işğalçı dövlət elan etməsi ilə düşdü. “Bandunq prinsiplərini rəhbər tutmaqla müasir dünyanın çağırışlarına birgə və adekvat cavab verilməsini təmin etmək” mövzusunda keçirilən XVIII Zirvə Görüşündə 60-a yaxın ölkənin dövlət və hökumət başçıları, həmçinin beynəlxalq təşkilatların rəhbərləri iştirak edirdilər. Ümumilikdə, zirvə görüşünə 160-a yaxın ölkənin və beynəlxalq təşkilatın nümayəndələri qatılmışdılar və hamı Azərbaycanın ərazi bütövlüyünü tanıdığını öz imzası ilə təsdiq etdi.

### *Elə həmin gün...*

Oktyabrın 25-də ABŞ-ın paytaxtı Vaşinqtonda Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilərdə Bakı şəhəri 2022-ci ildə keçiriləcək Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi etmək hüququnu qazandı. Bu uğurlu nəticə ilə bağlı, Beynəlxalq Astronavtika Federasiyasının icraçı direktoru Kristian Faythinger Azərbaycan mətbuatına verdiyi müsahibədə qeyd etdi ki, Beynəlxalq Astronavtika Konqresinə 2022-ci ildə evsahibliyi etmək üçün namizədlər arasında çox güclü rəqabət var idi. Prosesin əvvəlində beş namizəd var idi, sonda isə dörd güclü iddiaçı qaldı: “Bakıdan başqa Sinqapur, Rio-de-Janeyro, Nyu- Dehli şəhərləri namizəd qismində çıxış edirdi. Bütün təkliflər cəlbedici idi. Buna görə konqresin Bakıda keçirilməsi üçün qəbul etdiyimiz qərar, həqiqətən də, çətin oldu. Qeyd etmək istərdim ki, Bakıda konqresin keçirilməsinə dair təklif materiallarının hazırlanması, təklifin təşviq olunması baxımından Azərbaycan komandası təqdirəlayiqdir. 2022-ci ildə Bakıda keçiriləcək Beynəlxalq Astronavtika Konqresinin böyük uğurla nəticələnməsi üçün Azərbaycan komandası ilə işləməyi səbirsizliklə gözləyirik”.

### *Azərbaycan Prezidentinin təbriki*

Vaşinqtondan gələn şad xəbərdən bir neçə gün sonra xalqımız bu məzmunlu daha bir xəbərin sevincini yaşadı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Azərkosmos” Açıq Səhmdar Cəmiyyətinin sədri Rəşad Nəbiyevi Vaşinqton şəhərində Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilərdə Bakı şəhərinin 2022-ci ildə Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi etmək hüququ qazanması ilə əlaqədar qəbul etdi. Bu uğur münasibətilə “Azərkosmos”un kollektivini təbrik edən dövlət başçımız bildirdi ki, konqresin Azərbaycanda keçirilməsi haqqında qərarın dəstəklənməsi, əlbəttə ki, ölkəmizin siyasi nüfuzunun təzahürüdür, Azərbaycana olan inamın nəticəsidir: “Yadımdadır, bu ilin iyul ayında Beynəlxalq Astronavtika Federasiyasının prezidenti Azərbaycanda səfərdə idi. Mən onu qəbul etmişdim və ona öz niyyətimizi bildirmişdim ki, biz çox istəyirik, növbəti konqres Bakıda keçirilsin. Çünki biz hesab edirik ki, bu, ədalətli olar. Çünki Azərbaycanda son illər ərzində müasir texnologiyalar, kosmik sənaye sahələrində əldə edilmiş uğurlar, doğrudan da, çox təsirlidir. Gənc müstəqil ölkə üçün qısa müddət ərzində belə nailiyyətlərin əldə edilməsi böyük hadisədir. İndi bizim 3 peykimiz var və Azərbaycanda kosmik sənaye inkişaf edir. Azərbaycan dünyanın kosmik klubunun məhdud sayda olan üzvlərindən biridir”.

Dövlət başçımız ölkə ictimaiyyətinin diqqətini başqa bir məsələyə də cəlb etmək istədiyini bildirdi. O da budur ki, 1973-cü ildə Sovet İttifaqı dönəmində Beynəlxalq Astronavtika Konqresi Sovet İttifaqında keçirilmişdir. Cəmi bir dəfə, o da Bakı şəhərində. O vaxt ulu öndər Heydər Əliyev Azərbaycanın rəhbəri kimi böyük səylər göstərmişdir ki, Sovet İttifaqında bu konqres məhz Bakıda keçirilsin. Hesab edirəm ki, 2022-ci ildə – təxminən 50 ildən sonra müstəqil Azərbaycanda bu konqresin keçirilməsi böyük rəmzi məna daşıyır.

### *1973-cü ilin mətbuatı yazırdı ki...*

“Kommunist” qəzetinin 13 oktyabr 1973-cü il tarixli nömrəsinin birinci səhifəsində “Azərinform”un “Kosmik elmin üfüqləri” adlı geniş materialı verilmişdir. Məqalədə Bakı ictimaiyyətinin görkəmli sovet və xarici ölkələrin alimləri ilə görüşündən söz açılırdı. Qeyd edilirdi ki, Bakıda keçirilən XXIV Beynəlxalq Astronavtika Konqresi ictimaiyyət tərəfindən böyük maraqla qarşılanır. Bu da tamamilə qanunauyğun bir haldır: konqresdə elm və texnikanın tərəqqisi, bütün bəşəriyyətin gələcəyi üçün böyük əhəmiyyəti olan problemlər müzakirə edilir.

“Bakinski raboçi” qəzeti müxbirinin “Bakıda Beynəlxalq Astronavtika Konqresinin açılışı ərəfəsində” adlı məqaləsində qeyd edilirdi ki, əgər 1963-cü il tarixə Ay üzərində beynəlxalq laboratoriyanın yaradılması ilə düşmüşdüsə, yetmişinci illər Bakı Konqresindən əvvəlki tədbirlərdə də “Marsda beynəlxalq laboratoriya”nın yaradılması ilə yadda qalacaq. Həmin qəzetin verdiyi “Yer planeti: kosmosdan görünüş”, “Gələcəyin kosmik nəqliyyatı”, “Kosmos və elmi-texniki tərəqqi”, “Kosmos elminin üfüqləri”, “İnsan və ətraf mühit: kosmosdan aparılan tədqiqat” və digər yazılarda da Beynəlxalq Astronavtika Konqresinin materiallarından və əhəmiyyətindən söz açılırdı.

### *Heydər Əliyevə minnətdarlıq*

Bakıda keçirilmiş konqresdən bir həftə sonra – 1973-cü il oktyabrın 20-də Beynəlxalq Astronavtika Federasiyasının prezidenti, professor Luici Napolitana (Neapol) Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibinə ünvanladığı məktubda yazırdı:

“Hörmətli cənab Əliyev! Mən istəyirəm ki, XXIV Beynəlxalq Astronavtika Konqresinin iştirakçılarına Azərbaycan tərəfindən yaradılmış şərait və qonaqpərvərliyə görə Beynəlxalq Astronavtika Federasiyası adından minnətdarlığımı çatdırım.

Eyni zamanda, sizə ələ təşkilatçılıq işlərinə, konqres iştirakçılarının normal işləməsi üçün lazımi şəraitin yaradılmasına, eləcə də respublikanın yerli əhalisi ilə etdiyimiz əməkdaşlığa görə dərin minnətdarlığımı çatdırmaq istərdim...

Bu konqres həm elmi əhəmiyyəti, həm də təşkilatçılıq baxımından böyük nailiyyət kimi qəbul edildi. İştirakçıların sayı baxımından isə bu konqres Beynəlxalq Astronavtika Federasiyasının əvvəlki konqreslərində qazanılmış rekordların hamısını geridə qoydu...

Sonda icazə verin həm federasiya adından, həm də şəxsən, öz adımdan dərin təşəkkürlərimi təkrar edim”.

### *“Azərkosmos” ASC-nin sədri uğurların səbəbləri haqqında*

Dövlət başçımızın yuxarıda xatırlatdığımız fikirlərinə cavab verən “Azərkosmos” Açıq Səhmdar Cəmiyyətinin sədri Rəşad Nəbiyev Vaşinqtonda qazandığımız uğurun səbəbləri barədə danışarkən qeyd etdi ki, konqresin Bakıda keçirilməsi ilə bağlı verilmiş qərar, təbii ki, ilk növbədə ölkəmizdə mövcud olan siyasi və iqtisadi sabitliklə bağlıdır. Digər tərəfdən, ölkəmizdə yaradılmış infrastrukturun xüsusi rolu, önəmi olmuşdur. Bizdə beynəlxalq tədbirlərin keçirilməsi üçün kifayət qədər yaxşı infrastruktur vardır: “Digər bir məqam isə, cənab Prezident, ölkəmizdə bu səpkidə tədbirlərin keçirilməsi ənənəsinin mövcudluğudur. Bunların hamısından da ən vacibi, cənab Prezident, Sizin şəxsən Azərbaycan insanına və onun inkişafına verdiyiniz önəmdir. Çünki kosmik sənayenin özünü uğurlu edən əsas meyarlardan biri insan amilidir. Son illərdə Azərbaycanda təhsilə göstərilən diqqət və qayğı nəticəsində bu gün ölkəmizdə kifayət qədər bacarıqlı, texniki bilikləri və vərdişləri olan yeni bir nəsil formalaşmaqdadır. Ən önəmli məsələ isə odur ki, onlar öz Vətənini, xalqını sevən bir nəsildir” .

Seçki prosesinə gəldikdə isə ASC sədri qeyd etdi ki, dövlət başçısının tapşırığı ilə “Azərkosmos”la yanaşı, ölkəmizdə aidiyyəti qurumların hər biri koordinasiyalı şəkildə öz səylərini bir araya qoyaraq bu nəticəni əldə edə bilmişlər: “Altmış səkkiz ölkədən 398 üzvü birləşdirən bu federasiya dünyada texniki sahədə mövcud olan ən böyük qurumlardan biridir. Bu, istər iştirakçılarının sayı baxımından, istərsə də burada müzakirə olunan məsələlərin vacibliyinə görə ən mötəbər tədbirlərdən biridir. Rəqiblərimiz, Siz vurğuladığınız kimi, Sinqapur, Rio-de-Janeyro və Nyu–Dehli idi. Əgər biz Hindistana baxmış olsaq, onlar dünyanın ən aparıcı kosmik ölkələrindən biridir. Braziliyanın timsalında astronavtikaya baxmış olsaq, onlar dünyada sərnişin təyyarələri istehsal edən və ən öndə gedən üç ölkədən biridir. Sinqapur isə istər coğrafi mövqeyinə, istərsə də bu səpkidə tədbirlərin keçirilməsinə görə dünyanın lider ölkələrindən biridir”.

Bütün bunları yada salmaqla yanaşı, cənab Prezidentin dilə gətirdiyi əminliyi vurğulamaq da vacibdir: “Genişmiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi istiqamətində son illər ərzində əldə edilmiş təcrübə bizə imkan verəcək ki, konqres ən yüksək səviyyədə keçirilsin”.

**İttifaq MİRZƏBƏYLİ,**
**“Xalq qəzeti”**